Ədalət 2019.- 27 aprel.- S.12.



*Tural Cəfərli*

# VƏTƏN KİMİ DOĞMA, TANRI KİMİ ADAM...

### *Şair, yazıçı Vaqif İsaqoğlunun altmış yaşına*

**Doğma adamlar haqqında danışmaq nə qədər asandırsa, onlar haqqında nəsə yazmaq bir o qədər çətindir. Çünki yazı prosesinin dili ruhunla bağlıdı. Ruhunu danışdırmaq isə səndən böyük güc və iradə tələb edir. Bu gücü, bu iradəni isə həmişə əldə etmək olmur...**

İlk dəfədir yazı yazmaqda sözün əsl mənasında çətinlik çəkirəm. Yox, elə düşünməyin əhvalım və ya ruhi ovqatım buna imkan vermir. Əksinə həm əhvalım, həm ruhi ovqatım yaxşıdır, sadəcə olaraq bu yazı mənim hiss və düşüncələrimin ən gizlin, ən susqun və sükunət halında olan məqamlarına aiddir. Bu məqamların ortaya çıxmasından, aşkarlanmasından ehtiyat edirəm... Ona görə ki, qorxuram bu məqamları bilsələr sirr çözülər və bu sirrin sehri itər. Bu sirrin və sehrin səbəbkarı isə haqqında, daha doğrusu yaradıcılığından yazmağa çalışdığım yazıçı, şair, jurnalist və ən əsası mənim atam Vaqif İsaqoğludur.

Onun haqqında ilk dəfə qənaətim bir qələm, söz adamı kimi həssaslığı və kövrəkliyi ilə bağlı olub. Həmişə müşahidəm məni öz fikrimin təsdiqinə aparıb. Yazı masasının arxasında o işinin ustadı kimi çox ciddi və qaradinməz görünür. Baxışlarında bir istiqaməti dəqiq oxuyuram: "Heç bir maneə qəbul olunmur və ya bağışlanılmır. Ona görə də onun otağına gəlməyə uşaq vaxtımdan ehtiyat eləmişəm. Barmaqlarımın ucunda mənə lazım olan nəyisə götürüb, nəfəs almadan otağı tərk eləmişəm. Görünür bu onun yaradıcılıq işinin zəhmindən belə idi...."

Bir şair kimi Vaqif İsaqoğlu bütün varlığı ilə millidir. Onun şeirlərinin hər misrasında torpağın ətri duyulur. Onun hər şeirində dağların əzəməti, çayların səsi, quşların nəğməsi duyulur. O təpədəndırnağa Vətən adamıdır, el adamıdır, yurd adamıdır. Hər bir şeirində doğmalığı, sevgini, xatirələri görmək olar. Atam olduğu üçün demirəm amma həqiqətən şeirləri hər bir vətənənini sevən üçün milli kimlikdir. Mən onun şeirləri ilə ilk qələm təcrübəmi qazanmışam. Məsələn aşağıdakı şeirə diqqət edək:

**Hələ bir ürəyə toxunmamışam,**
**Haram bir tikəyə toxunmamışam.**
**Bir qəmli nəğməyəm, oxunmamışam,**
**Hələ üzüm ağdı Allah yanında.**

Halallığı, saflığı və ədaləti əsas yaşam prinsipi seçən şairin ürək çırpıntıları adamı düşünməyə vadar edir.

Düşünürsən, düşünürsən ki, bu həyata niyə gəlmisən, nə üçün yaşayırsan və necə bu həyatdan gedəcəksən...

**Mən ki, dərd etmədim dövləti, varı,**
**Qoruyub saxladım namusu, arı.**
**Üz tutub gedirəm altmışa sarı,**
**Hələ üzüm ağdı Allah yanında.**



Altmış yaşın astasında olan şairin ömrün bu çağındakı hesabatı onun mənəvi dincliyindən xəbər verir. Vaqif İsaqoğlu mənən rahatdı, çünki əməlləri onu rahat yaşamağa imkan verir. Bu rahatlıqla yaşamağın özü bir xoşbəxtlikdi...

**Yağışa düşənin, qara düşənin,**
**Namərdin qurduğu tora düşənin,**
**Çətinə düşənin, dara düşənin,**
**Hər an köməyinə gəldi yaxşılar.**

Hərdən mənə elə gəlir ki, şeir yazılmamışdan qabaq yaşanan bütün hadisələr şairin ürəyində şeir kimi görünür. Bunu isə sonradan şeir formasına salır. Bəlkə də ürəyi bu yükü çəkə bilmir deyə. Bəlkə də özünü ağır və yorğun hiss edir deyə .

**Ağlayan gözlərin yaşını silib,**
**Getdiyi yollardan duman çəkilib.**
**Dərdlinin dərdini öz dərdi bilib,**
**Ürəkdən kədəri sildi yaxşılar.**

Yaxşılar olmasa həyatın mənası və dadı da olmaz. Yaxşılar bizə pisləri tanımaq üçün verilən ən əlverişli bir fürsətdi. Bu fürsəti isə layiqimcə dəyərləndirmək lazımdı...

İnsan iztirablardan, qayğılardan daş kimi bərkiyir. Bir də görürsən ki, üzündəki qırışlar səni tanınmaz hala salıb. Kədəri, qəmi, ayrılıqları baxışlarından silmək olmur. Şairin ömrü kədərsiz, qəmsiz, ayrılıqlarsız necə ötüşə bilər ki...

**Ocaqda köz yoxsa, külün dərdidi,**
**Bülbül uçub getsə, gülün dərdidi,**
**Adam var hər dərdi elin dərdidi,**
**Adam var dərdinə yanmağa dəyməz.**

"Şair həqiqəti sübut etmir, o onu göstərir". Bu sözlərin müəllifi Belinskidir. Belinskinin təbirincə desək, şair həqiqətin özüdür həm də. Onun şeirlərində həqiqətdən uzaq nəsə tapmaq çətin məsələdir. Bu baxımdan dərdinə yanmağa dəyməyən adamların olması danılmaz faktdır...

Şeirləri təhlil etdikcə düşünürəm. Düşünərəm ki, nə qədər əzab çəkməlisən ki belə yaza biləsən. Bu əzab bəlkə də illərlədi davam edir. Özünə, dünyasına, həyatına sığışmayan "şair" əzabının daşıyıcısı olmaq... Bu çox çətin məsələdi. Vallah çox çətin məsələdi. Bunu yaşamaq da zülmdü, yazmaq da, başa düşmək də...

**Heç zaman ləl olmaz çaylaq daşından,**
**Duman əskik olmaz dağlar başından.**
**Ay Vaqif, pisləri sil yaddaşından,**
**Pisləri düşünüb, anmağa dəyməz.**

Atam mənim üçün Vətən kimi doğmadır, Tanrı kimi müqəddəsdir. Bəlkə də şablon səslənir, bəlkə də hamı üçün öz atası bu cür təsvirə və ya bundan da böyük, epiteti bundan da maraqlı səslənən ifadələrlə deyilən sözlərə sahibdir, amma mənim üçün Vətən kimi doğmalığı ancaq bi rata kimi yox, həm də bir şair kimi belədir. OnunTanrı kimi müqəddəsliyi bi rata kimi yox, bir yazıçı kimi belədir...

Onun "Armud ağacı" hekayəsini oxuyanda danışmağa sözüm olmayıb, "Qəbiristanlıqda" hekayəsindən sonra onu bir az da yaxından tanımışaç.

Yəni mən onu bir valideyn kimi yox həmişə bir yazıçı, söz adamı kimi kəşf etməyə çalışmışam. Bu kəşfiyyat işimi bu yazıda açmağa çalışdım. İnanıram ki, hələ kəşfiyyat işim bununla bitməyəcək və mən öz axtarışlarımda yenidən yazmaq üçün əlverişli qaynaqlar tapacam...

**Altmış yaşın mübarək ata, Altmış yaşın mübarək Vətən kimi doğma insan, Tanrı kimi müqəddəs yazıçı...**